

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 106 (21.258)

30 may 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva "Bakı-2015" Əməliyyat Komitəsinin baş ofisində yaradılan şəraitlə tanış olublar.

Azərbaycanın Gənclər və İdman naziri, "Bakı-2015" Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov və əməliyyatlar üzrə baş direktor Saymon Kleq ofisdə yaradılan şərait barədə dövlətimizin başçısına və xanımına məlumat veriblər.

Bildirilib ki, Birinci Avropa Oyunları ilə əlaqədar bütün nəqliyyat, qeydiyyat, informasiya, təhlükəsizlik və digər əməliyyatlar bu mərkəzdən idarə olunacaq. Mərkəzdə yerli və xarici mütəxəssislərin yüksək səviyyədə xidmət göstərmələri üçün hər cür şərait yaradılıb. Ümumilikdə, komitədə yerli və xarici mütəxəssislərdən ibarət 1500-ə yaxın işçi çalışır.

Dövlətimizin başçısı və xanımı Birinci Avropa Oyunlarının keçiriləcəyi məkanlar və ümumi marşrutun əks olunduğu xəritə ilə də tanış olublar. Oyunlar zamanı təhlükəsizlik məsələləri də yüksək səviyyədə həyata keçiriləcək.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Oyunlar Əməliyyatlarına Dəstək Mərkəzi ilə tanış olublar.



## Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan



*Naxçıvan Dövlət Universitetində 28 May – Respublika Gününə həsr olunmuş Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda 193-cü məşğələsi keçirilib.*

Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müstəqil Azərbaycanın keçdiyi tarixi inkişaf yoluna nəzər salaraq, dövlət müstəqilliyimizin qorunub saxlanılması, möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən danışıb. Rektor müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin 97 il öncə məhz Azərbaycanda qurulduğunu diqqətə çatdırıb. Bildirilib ki, bu gün müstəqil, azad və bütün dünyada söz sahibi olan Azərbaycan Respublikası əldə etdiyi sosial-iqtisadi uğurlarla nəinki bölgənin, hətta dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilib. Artıq ölkəmizin özünəməxsus sosial-iqtisadi inkişaf modeli əksər ölkələr tərəfindən nümunə kimi qəbul olunmaqdadır.

Məşğələdə "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda məruzə ilə çıxış edən Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev qeyd edib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra xalqımız müstəqilliyin ilk illərində üzləşdiyi təhlükələrdən xilas olub, müstəqilliyimiz əbədi, dönməz xarakter alıb, bütün sahələrdə islahatlara başlanılıb. Məruzəçi Azərbaycanın bütün sahələrdə dünyanın aparıcı ölkələri ilə bir sırada olduğunu faktlarla məşğələ iştirakçılarının diqqətinə çatdırıb.

**Mina QASIMOVA**

## Qarsda 28 May – Respublika Günü qeyd edilmişdir

*Mayın 25-də Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğu tərəfindən Qars Qafqaz Universitetində 28 May – Respublika Günü münasibətilə tədbir keçirilmişdir.*

Tədbirdə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Qarsdakı Baş konsulu Ayxan Süleymanlı çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun keçdiyi şərəfli yol barədə məlumat vermişdir. Bildirilmişdir ki, 1918-ci ildə öz müstəqilliyini əldə edən xalqımız Şərqdə ilk demokratik respublika yaratmışdır. Cümhuriyyətin süqutundan sonra Azərbaycan xalqının azadlıq arzuları sönməmiş, 1991-ci ildə yenidən müstəqilliyini bərpa etmişdir. Müstəqilliyin ilk illərində ölkəmizin məhvə sürükləndiyini bildirən Baş konsul demişdir ki, ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda sabitlik, iqtisadi inkişaf təmin edilmiş, müstəqilliyimiz möhkəmləndirilmişdir. Ulu öndərin müəyyənləşdirdiyi siyasi xəttin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasını, o cümlədən Azərbaycan-Türkiyə əlaqələrinin davamlı inkişafını təmin etmişdir.

Qars Vilayətinin valisi Günay Özdəmir Azərbaycan xalqının müstəqillik əldə etməsini tarixi nailiyyət kimi dəyərləndirmiş, çoxəsrlik tarixə malik olan Azərbaycan-Türkiyə qardaşlığının əbədi olduğunu bildirmişdir.

Sonda ziyafət təşkil olunmuş, Naxçıvan Dövlət Filarmoniyasının və Şərur Xalq Yallı Ansamblının kollektivləri geniş konsert proqramı ilə çıxış etmişlər.

Tədbirdə Qars Şəhər Bələdiyyəsinin rəhbəri Murtaza Qaraçanta və digər rəsmi şəxslər, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı seminar-müşavirə keçirilib

Qanun üzrə hüquq və vəzifələrin meydana gəlməsi, dəyişdirilməsi və onlara xitam verilməsinə səbəb olan hadisələr və vətəndaşların hərəkətləri vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vasitəsilə rəsmiləşdirilir. Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sistemi insan hüquqlarının qorunması, sosial müdafiə proqramlarının həyata keçirilməsi, ailə sağlamlığının təmin edilməsi, əhalinin mənəvi sağlamlığının müdafiə edilməsi və cəmiyyətdə mövcud olan bir çox digər mühüm hüquqi və sosial proseslərdə vacib rol oynayır.

Bu fikirləri vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı zamanı qanunvericiliyin tələbləri ilə bağlı Culfa rayonunda keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev deyib.

Ədliyyə naziri bildirib ki, ulu öndərimizin 31 iyul 2002-ci il tarixli Fərmanına əsasən, rayon mərkəzindən kənarda yerləşən qəsəbə və kənd sakinləri üçün daha münasib şəraitin yaradılması məqsədilə nikahın, doğumun və ölümün dövlət qeydiyyatı rayon (şəhər) qeydiyyat şöbələri ilə yanaşı, həm də inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə aparılır. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılmasını, qanunvericiliyin tələblərinə uyğunluğunu öyrənmək məqsədilə mütəmadi olaraq nazirlik tərəfindən icra hakimiyyətləri ilə birlikdə yoxlamalar həyata keçirilir. Bu yoxlamalar zamanı aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülür, şəhər və rayon icra hakimiyyətləri məlumatlandırılırlar. Qeydiyyat və notariat sahəsində aparılan əməliyyatlar zamanı qanunvericiliyin tələblərinə əməl olunması, əhaliyə bu sahədə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi, nöqsanlara yol verilməməsi, aparılan əməliyyatlar zamanı kargüzarlıq qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin gözlənilməsinin təmin edilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir. Sözügedən aktların qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra Qeydiyyat şöbəsinin rəisi və əməliyyatları aparan inzibati ərazi dairəsi üzrə nümayəndə müvafiq əməliyyatı rəsmiləşdirməli və bu zaman müvafiq qanunvericiliyin, Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə riayət etməlidir.



Qeyd edilib ki, Culfa rayonunda 19 inzibati ərazi dairəsi üzrə nümayəndəlik tərəfindən doğumun, nikahın, ölümün qeydiyyatı və bir sıra notariat hərəkətləri rəsmiləşdirilir. 2009-2014-cü illər ərzində rayonun belə qurumları üçün 16 dəfə seminar təşkil olunub və bu seminarlarda vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı söhbətlər aparılıb. Bundan başqa, nazirlik tərəfindən bütün inzibati ərazi dairəsi üzrə nümayəndəliklər müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin ediliblər. Rayonun adıçəkilən qurumlarında vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində Ədliyyə Nazirliyi tərəfindən rayon İcra Hakimiyyəti ilə birlikdə 12 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün aidiyyəti şəxslərə hərtərəfli metodik kömək göstərilib. Ancaq bütün bunlara baxmayaraq, onların vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində hələ də nöqsanlar qalmaqdadır. Belə ki, 2014-cü ildə və 2015-ci ilin I rübü ərzində keçirilən yoxlamalar zamanı Bənəniyar, Teyvaz, Əbrəqunus və Milax kəndlərinin inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin işində nöqsanlar aşkar edilib. Bu nöqsanlar qısa müddətdə aradan qaldırılmalıdır.

İştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsinin və müzakirələrin aparıldığı tədbirə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yekun vuraraq rayonda dövlət qurumları üçün yaradılan müasir şəraitin müqabilində inzibati ərazi dairəsi üzrə nümayəndələrdən nümunəvi iş tələb olunduğunu bildirib, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə əməl olunmasına xüsusi diqqət göstərilməsinin vacibliyini vurğulayıb.

## Bələdiyyə orqanlarında qanunçuluğa əməl edilməsi və qarşıda duran vəzifələr müzakirə olunub

*Şərur Rayon İcra Hakimiyyətində "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açıb.*



Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, ötən dövr ərzində Şərur rayonunda 16 dəfə seminar-müşavirə keçirilib. Belə seminar-müşavirələrin keçirilməsində məqsəd bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasından ibarət olub.

Vurğulanıb ki, Şərur rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 19 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Lakin nazirlik tərəfindən keçirilən maarifləndirici tədbirlərə və verilən tövsiyə və təkliflərə baxmayaraq, hələ də rayon üzrə bələdiyyələrin fəaliyyətində nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Bələdiyyələrdə yenidən araşdırmalar aparılarkən müəyyən edilib ki, müşahidə olunmuş bəzi nöqsanlar aradan qaldırılmayıb.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən, hər bir bələdiyyə qəbul etdiyi aktın bir surətini inzibati nəzarət qaydasında baxılması üçün 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Bu sahədə bələdiyyələrin əksəriyyəti qanunvericiliyin tələblərini pozur. Bütün bunların nəticəsidir ki, son 5 ildə muxtar respublika üzrə 42 bələdiyyə sədri haqqında inzibati tənbeh tədbiri görülüb ki, bu tədbirlərdən 22-si Şərur rayonu ərazisindəki bələdiyyələr barədə olub. Hər bir bələdiyyə qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil etməlidir.

**Xəbərlər şöbəsi**

# Gömür Naxçıvanın müasirləşən ucqar dağ kəndlərindən biridir

*Yolboyu düşüncələr*

*Gülün gülü, çiçəyin çiçəyi çağırdığı bu yaz günlərində qədim diyarımız özgə bir büsatdadır. Hara baxırsan, yaşıllıqlar, gülzarlıqlar üzünə gülür, üzlərdəki təbəssüm elə bil, bir qədər də artıb. Və bunları görəndə, gözəlliyin sehrinə düşəndə, ruhun da təzələnir, özün də mənəvi rahatlıq tapırsan. Belə günlərin birində yolumuzu Şahbuz rayonunun Gömür kəndinə saldıq.*

Şahbuz şəhərindən həmin yaşayış məntəqəsinəcən olan 15-20 dəqiqəlik yolu necə qət etdiyimizdən xəbərimiz belə olmadı: şəhər yollarından seçilməyən yol, yol kənarlarında gördüyümüz mənzərələr. Ağbulaq kəndi ərazisindəki bulağın yanında avtomobildən düşüb bulağın dişgöynədən suyundan içməyi məsləhət bilən sürücü Zahid usta həm də maraqlı müsahibdir:

– Bu sudan içməyib yanından ötüb-keçmək olmaz. Bu bulağın suyu dərmandır.

Ətrafa baxıram. Ərazidə gözümə sataşan müalicəvi dərman bitkiləri elə bil ki, əl ilə əkilib-becərilib. Hansı bitkiyə rast gəlməzsən burada?

Yola düzəlirik. Bu da Gömür kəndi. Hər il muxtar respublikada ondan çox yaşayış məntəqəsi müasirliyə qovuşur, həmin kəndlərdə yeni infrastruktur, müasir iş şəraiti yaradılır. O da xüsusi vurğulanmalıdır ki, bu sırada ucqar dağ və sərhəd kəndləri öndə gedir. Ordubad rayonunun Nürgüt, Xurs, Ələhi, Tivi, Culfa rayonunun Şurud, Xanəgah, Ləkətağ, Babək rayonunun Nəhəcir, Göynük, Gərməçataq, Aşağı Buzqov, Yuxarı Buzqov, Kəngərli rayonunun Çalxanqala, Şərur rayonunun Axura, Şahbulaq, Şahbuz rayonunun Yuxarı Qışlaq, Keçili, Külüs, Biçənək və başqa yaşayış məntəqələri hərtərəfli dövlət qayğısından bəhrələnərək qəsəbə timsallı kəndlərə çevriliblər. Bu ünvanlarda məktəb, səhiyyə, mədəniyyət müəssisələri üçün tikilən binalar, inşa olunan kənd və xidmət mərkəzləri, salınmış körpülər və yollar kənd adamlarının mövcud problemlərini aradan qaldıraraq onların məskunlaşmasına, məhsuldar torpaq sahələrindən səmərəli istifadələrinə şərait yaradıb. Aprel ayının 22-də Gömür kəndində istifadəyə verilən yeni obyektlər bu yaşayış məntəqəsini də müasirliyə qovuşdurub. Budur, həmin obyektlərdən biri –



### *Kənd mərkəzi*

*Burada nümunəvi iş şəraiti yaradılıb*

Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mansur Orucov yeni bina haqqında məlumat verərək bildirdi ki, kənd mərkəzi 2 mərtəbədən ibarətdir. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, kitabxana, feldşer-mama, baytarlıq və polis sahə məntəqələri, mədəniyyət evi və 60 yerlik iclas zalı yerləşir. Binada yaradılan müasir iş şəraiti inzibati idarəetmə sisteminin daha təkmil təşkilinə və sakinlərin sosial problemlərinin vaxtında həllinə imkan verib. Rabitə evində yeni ATS quraşdırılıb, poçt xidməti təşkil olunub. Aparılan quruculuq tədbirləri zamanı kənd sakinlərinin asudə vaxtlarının səmərəli təşkili də diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə kənd mərkəzində 5 mindən artıq fondu olan kitabxana və mədəniyyət evi istifadəyə verilib. Kənd mərkəzində feldşer-mama məntəqəsi üçün də otaqlar ayrılıb. Burada ən müasir tibbi avadanlıqlar quraşdırılıb və məntəqə lazımi dərman preparatları ilə təmin edilib.

Binada fəaliyyət göstərən bütün qurumların əməkdaşları yaradılan şəraitdən razılıqlarını bildirdilər, dövlətimizə minnətdarlıq etdilər. Kənd mərkəzinin bir addımlığında yerləşən məktəbə üz tutduq.

### *Pedaqoji kollektiv sevinc içərisindədir*



Dərslər, dərsdənkənar məşğələlər qurtarsa da, pedaqoji kollektiv məktəbdədir. Hiss etmək çətin deyil ki, təhsil ocağının kollektivi hələ də sevinc içərisindədir. Məktəbin müəllimi Zahid Aslanov dedi ki, rayonda aparılan kompleks quruculuq işləri ucqar Gömür kəndini də əhatə edib, insanların sosial problemləri həll olunub. Kəndin xidmət sahələrində çalışan işçilər üçün nümunəvi iş şəraiti yaradılıb. Hələ bir neçə il əvvəl öz yurd yerlərindən didərgin düşərək bura pənah gətirən soydaşlarımız üçün 19 fərdi ev tikilib.

Söhbəti dəyirmi masa arxasında davam etdiririk. Məktəbin direktoru Ramin Nağıyev bu ucqar yaşayış və sərhəd məntəqəsində həyata keçirilən quruculuq tədbirlərini ölkəmizdə kəndlərin inkişafına göstərilən dövlət qayğısının ifadəsi kimi dəyərləndirərək bildirdi ki, dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşən bu ucqar dağ və sərhəd kəndində yaradılan şərait insanların məskunlaşmasına, onların rahat yaşayışına, kəndlərin kompleks inkişafına, bir sözlə, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına xidmət edir. Bu tədbirlərə bir neçə il əvvəl başlanılıb. Kənd tamamilə qazlaşdırılıb, elektrik enerjisinin fasiləsiz verilişi təmin edilib, müasir rabitə sistemi qurulub, poçt şöbəsi fəaliyyətə başlayıb, kəndə fiber-optik kabel xəttinin çəkilməsi sürətli internetə çıxış imkanları yaradıb. Müasir tələblər səviyyəsində qurulan məktəb binası şagirdlərin yaxşı təhsil almasına imkan verir.

Məktəbin qocaman müəllimi Rəsul Azadəliyev görülən bu işlər üçün dövlətimizə minnətdarlığını bildirdi. Söhbətə Ənvər müəllim də qoşuldu: iki mərtəbədən ibarət olan məktəb binası 110 yerlikdir. Burada 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter, şahmat otaqları, kitabxana, hərbi kabinə, idman zalı istifadəyə verilib və açıq idman qurğuları yaradılıb. Məktəbin kitabxanasında müasir və klassik Azərbaycan ədəbiyyatı nümunələri ilə yanaşı, dünya klassiklərinin əsərləri də var. Ayrı-ayrı fənlərə aid dərsliklər, ensiklopediyalar, bədii ədəbiyyatlar məktəbdə kitabxana işinin günün tələbləri səviyyəsində təşkilinə imkan verib.

Ənvər müəllim onu da vurğuladı ki, məktəbin açılışı günü Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi tövsiyələr onların əsas fəaliyyət istiqamətidir: ***“Mövcud şərait gələcəkdə məktəbi bitirən gənclərin yaxşı ali təhsil almasına da imkan verəcəkdir. Hər bir gəncin gələcək həyat yolu məktəbdən başlayır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, “İnsanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır”. Ona görə də məktəbdə tədris günün tələbləri səviyyəsində qurulmalı, təhsilli gənclər yetişdirilməlidir”.***

Müəllimlərin söhbətlərindən öyrəndik ki, ötən il məktəbin 2 məzunu olub, hər ikisi kollektivin etimadını doğruldaraq ali məktəb tələbəsi adını qazanıb. Bu tədris ilində XI sinifdə təhsil alan 5 şagirdin də etimadı doğruldacağına böyük ümid var. Müəllimlər bunu onların test-sınaq imtahanlarında əldə etdikləri nəticələrə əsasən deyirlər.




### *Xidmət mərkəzinin fəaliyyətindən razılıq edirlər*

Məktəbin müəllimləri həmin gün Gömürdə açılışı olan xidmət mərkəzinin fəaliyyətindən də razılıqla danışdılar. Burada bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir.

Bildirdilər ki, xidmət mərkəzinin istifadəyə verilməsi sakinlərin öz işlərinə daha çox vaxt ayırmasına şərait yaradıb. Çünki artıq bu mərkəz sayəsində əhalinin zəruri ehtiyaclarını ödəməsi məqsədilə rayon mərkəzinə üz tutmasına ehtiyac yoxdur.

* * *

Kənddə geniş abadlıq işləri aparılması, kənddaxili yola asfalt örtük salınması, yolboyu beton kanal çəkilməsi, bir neçə su keçidinin qoyulması, Ağbulaq kəndindən Gömür kəndinədək və eləcə də kənd daxilində fiber-optik kabel, rabitə, elektrik, qaz və içməli su xəttinin çəkilməsi, damcılı suvarma sistemi qurulması barədə də müəllimlər ürəkdolusu danışdılar. Onlarla kəndin adının etimologiyası, bu qədim yurd yerinin müalicəvi bitkilər məskəni olması, kənddə yaşadılan adət-ənənələr haqqında da ətraflı söhbət etdik. Tədris ocağında gömürlü uşaqlara tarix fənnini öyrədən Əsəd Seyidov bildirdi ki, AMEA-nın müxbir üzvü Adil Bağırovun qənaətinə görə, “Gömür” sözü türk mənşəli addır. Bu ad qədim türk abidələrinin dilində işlənib. Adil Bağırov yazır ki, “Gömür” adının məna açımı ilə bağlı fikir söyləyən mərhum filoloq-alim Tofiq Əhmədovun da qənaəti maraqlıdır. O, V.V.Radlovun belə bir fikrini əsas götürür ki, bu söz “dağ başında dar, yarğanlı, uçurumlu yer” mənasını bildirir. Bu məsələyə münasibətini bildirən filoloq-alim Qara Məşədiyev isə fikrini belə açıqlayır: “kömür//kümür və gömür komponentli toponimlərin əksəriyyəti dağlıq əraziləri və bu ərazilərdə yerləşən bir sıra obyektlərin adını bildirməyə xidmət edir”. Doğrudan da, Gömür kəndi ərazisinin relyef quruluşuna görə dağlıq hissədə, dağ yarğanının üzərində yerləşir, elə buna görə də adın məna açımı tamamilə həqiqətə uyğundur. Ərazidə “Gömür yolu”, “Gömür dağı”, “Gömür mineral suyu” kimi onomastik vahidlərin olması da bunu sübut edir.

Məktəbin biologiya müəllimi Rəşid Ağayev ərazidə yetişən müalicəvi otlardan danışdı:

– Böyrəkotu, kəklikotu, çobanyastığı, baldırğan, səhləb, həmərsin, qazayağı, şomu, quzuqulağı, çiriş... hər biri bir dərdin dərmanıdır. Gömürdə ayağın hansı massivə düşsə, belə otlarla rastlaşa bilərsən. İlin yay fəslində kəndə ölkəmizin digər bölgələrindən çoxlu qonaqlar gəlir. Belə müalicəvi otlarla maraqlanır, onları toplayaraq özləri ilə aparırlar. Bu, muxtar respublikamıza qismət olmuş sərvət, təbii müalicə vasitələridir. Çünki onlardan insanların sağlamlığının qorunmasında istifadə edirlər. Belə təbii müalicə üsulu dünyada qəbul olunmuş vasitələrdən biridir. Şagirdlərimiz həmin otlardan ibarət herbarilər hazırlayırlar.

**Gömür xalqımıza məxsus olan adət-ənənələrimizi böyük ehtiramla qoruyub saxlayan yaşayış məntəqələrimizdən biridir. Böyüyə hörmət, ağsaqqal nəsihətinə əməl etmək, digər adət və ənənələr yüz illərdir ki, burada ehkam kimi qəbul edilib. Müəllimlər bugünkü nəslə də bu adət-ənənələrin aşılanmasına ciddi önəm verirlər.**

**Bəli, Gömür kəndi də artıq Naxçıvanın müasir yaşayış məntəqələrindən biridir. Bu gün muxtar respublikada belə ünvanların sayı getdikcə artır. Bu isə regionda insan amilinə qayğının ifadəsi, sosial-iqtisadi inkişafın bəhrəsidir.**

✍ Muxtar MƏMMƏDOV

# “Prestij Naxçıvan Pivəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları xarici bazara çıxarılacaq



***“Prestij Naxçıvan Pivəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti 2006-cı ildə yaradılıb. Özəl bölməyə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib, Sahibkarlığa Kömək Fondundan 1 milyon 80 min manat dövlət maliyyə dəstəyi göstərilib.***

İllik istehsal gücü 300 min dekalitr olan zavodda Amerika Birləşmiş Ştatları, İtaliya, Çexiya və Macarıstandan alınmış avadanlıqlar quraşdırılıb. Eyni zamanda 2008-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə 50 min manat dövlət maliyyə dəstəyi göstərilib ki, bu vəsaitlə müəssisədə yeni istehsal sahəsi – istehsal gücü gündə 1000 kiloqram olan balığın duzlanması və qurudulması sexi tikilib.

İstehsal edilən pivənin vaxtında yerlərə çatdırılması və keyfiyyətlə saxlanılması üçün müəssisəyə “Hundai” markalı soyuducu kamerası olan avtomobil alınıb. Bundan başqa, xammalın saxlanılması üçün 288 kvadratmetrlik anbar inşa edilib, 50 min manat dəyərində Çexiya istehsalı olan pasterizator avadanlığı alınıb quraşdırılıb. Bu da istehsal edilən pivəni 6 ayadək saxlama imkanına malikdir.

Müəssisədə daha bir istehsal sahəsinin yaradılması – sərinləşdirici içkilərdən kvas və limonad istehsalı üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin avqust ayında 300 min manat güzəştli kredit ayrılıb, müasir tələblərə cavab verən istehsal sahələri inşa olunub. Burada gündəlik istehsal gücü 1 ton olan müasir texnoloji avadanlıqlar quraşdırılıb, 2012-ci ilin mart ayından kvas istehsalına başlanılıb. Kvas istehsalı üçün lazım olan xammal Rusiya Federasiyasından alınır, maqneziumsuz su isə Kəngərli rayonunun Çalxanqala kəndindəki bulaqlardan xüsusi maşınlarla daşınır. Yeni istehsal sahələrinin yaradılması istiqamətində işlər uğurla davam etdirilib, Gürcüstan Respublikasından limonad istehsalı sahəsində qabaqcıl təcrübəyə malik mütəxəssislər cəlb olunmaqla limonad istehsalına başlanılıb və istehsal sahəsi genişləndirilərək çeşidlərin sayı 5-ə çatdırılıb. Yeni istehsal sahələrinin yaradılması ilə müəssisədə 10, xidmət sahələrində isə 50 yeni iş yeri açılıb. Ümumilikdə, müəssisədə 35, xidmət sahələrində isə 200 nəfərdən çox işçi çalışır.

10 çeşiddə pivə istehsal etmək imkanı olan müəssisədə hazırda açıq və tünd olmaqla, 2 çeşiddə pivə istehsal olunur. İstehsal edilən pivə 0,33, 0,5 litrlik şüşə, 1 litrlik plastmas və 25, 50 litrlik çəlləklərdə, kvas 0,5, 1 litrlik plastmas, 25, 50 litrlik çəlləklərdə, limonad isə 0,5, 1 litrlik plastmas butulkalarda “Prestij” əmtəə nişanı ilə satışa çıxarılır. Onu da qeyd edək ki, müəssisədə texniki təhlükəsizlik və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında və xarici ölkələrdə də satışa çıxarılması planlaşdırılır. Artıq bu istiqamətdə həyata keçirilən tədbirlər öz bəhrəsini verib, “Prestij Naxçıvan Pivəsi” Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000 və İSO-9001 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Bu da “Prestij” əmtəə nişanı ilə satışa çıxarılan məhsulların yüksəkkeyfiyyətli istehsalının göstəricisi və dünya bazarına girişinin təminatıdır.

✍ Kərəm HƏSƏNOV

***1950-ci il iyunun 1-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən təşkil olunan Qadınların Beynəlxalq Konfransında uşaq hüquqlarının təmin edilməsi ilə bağlı irəli sürülən təkliflər qəbul edilmişdir. Həmin tarixdən etibarən dünyanın əksər ölkələrində 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd olunur.***

*1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür*

# Uşaqlar xalqın gələcək təminatçılarıdır

Uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir. Uşaq yaşadığı ailənin möhkəmliyi, təmsil etdiyi xalqın gələcəyidir. Ailəyə sevinc bəxş edən, varlığı saflıqdan, sadəlikdən yoğrulan uşaqların xoşbəxt, firavan yaşayışı, layiqli bir vətəndaş kimi böyüməsi hər kəsin müqəddəs borcu, həyat amalıdır. Ölkəmizdə uşaqlara diqqət və qayğının prioritet istiqamət kimi müəyyənləşməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider ölkəmizə rəhbərlik etdiyi dövrlərdə uşaqlara xüsusi qayğı göstərərək onların gələcək həyat yollarının düzgün istiqamətləndirilməsi naminə mühüm qərarlar qəbul etmişdir. Ötən əsrin 70-80-ci illərində gənc nəslin nümayəndələrinin yaxşı təhsil alması və dünyagörüşlərinin formalaşması məqsədilə ölkəmizin bütün bölgələrində məktəb binaları, məktəbdənkənar müəssisələr, istirahət guşələri, mədəniyyət evləri, musiqi məktəbləri tikilərək istifadəyə verilmişdir.

***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır"***, – deyən ulu öndər Heydər Əliyev müstəqillik illərində də uşaqların hüquqlarının qorunmasını diqqətdə saxlamışdır. Ölkəmizdə dövlət uşaq siyasətinin hüquqi əsasları formalaşdırılmış, zəngin qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmuş və "Uşaq hüquqları haqqında" Bəyannaməsini qəbul etmişdir. Həmçinin 1998-ci il mayın 19-da Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" və 1999-cu il iyunun 22-də "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul edilmiş, bu sahədə dövlət siyasətinin əsas prinsipləri müəyyən edilmişdir.

Ulu öndərin müəyyənləşdirdiyi dövlət uşaq siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə uşaq problemlərinin həllinə yönəlmiş çoxsaylı dövlət proqramları qəbul edilmiş, uşaq hüquqlarının etibarlı təminat mexanizmləri yaradılmış, hər bir sahədə geniş vüsət almış quruculuq işləri uşaqların təhsili və intellektual inkişafı istiqamətinə də yönəldilmişdir. Uşaqlara yüksək diqqət və qayğı ilə yanaşan dövlət başçısı demişdir: ***"Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir".***

Naxçıvan Muxtar Respublikasında da uşaqların hüquq və sağlamlıqlarının qorunması istiqamətində mühüm tədbirlər görülür, onların təhsilinə, təlim-tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. Hazırda muxtar respublika əhalisinin 35,8 faizini, yəni 157 min 581 nəfərini uşaqlar təşkil edir.

Muxtar respublikada uşaqların təhsili diqqət mərkəzində saxlanılır. 1995-2015-ci illərdə 200-dən artıq ümumtəhsil məktəbi, onlarla uşaq musiqi məktəbi və məktəbəqədər təhsil müəssisələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmişdir. Bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış, hər 12 şagird bir kompüterlə təmin olunmuşdur. İstifadədə olan kompüterlərin 84 faizi internetə qoşulmuşdur. Uşaqların təhsilinə göstərilən diqqət və qayğı muxtar respublika təhsilinin keyfiyyət göstəricilərini də ilbəil yaxşılaşdırmaqdadır.

Uşaqlarımızın peşə məktəblərinə cəlbi, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının düzgün təşkili, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakı da diqqət və qayğı ehatəsindədir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası, Uşaq Kitabxanası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq "Gənc istedadların "Qızıl kitabı""nın yaradılması, 4 nəfər istedadlı uşağın adının bu kitaba salınması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Uşaqların fiziki inkişafı və sağlamlığının qorunması sağlam gələcəyin təmin edilməsi deməkdir. Muxtar respublikada uşaqların sağlamlığının, fiziki inkişafının təmin olunması üçün ciddi tədbirlər görülür. Son illər 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 6 Uşaq-gənclər şahmat məktəbi, 9 Uşaq-gənclər idman məktəbi, Stend və Sportinq Atıcılıq Mərkəzi, eləcə də stadionlar, idman zalları və sadə idman qurğuları, ümumilikdə, 40-a yaxın idman obyekti istifadəyə verilmiş, ümumtəhsil məktəbləri ən müasir standartlara cavab verən idman zalları ilə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq, ötən müddət ərzində uşaq müəssisələrində uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər görülmüş, muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılmışdır. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"na əsasən, cari ilin əvvəlində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən monitorinq keçiriləcək uşaq müəssisələrinin siyahısı və ekspert qrupu təsdiq olunmuşdur. Ekspert qrupu tərəfindən gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəbdə, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, Ordubad şəhərindəki M.Füzuli adına tam orta internat məktəbində hər rübdə bir dəfə olmaqla monitorinq keçirilmişdir.

Bu gün muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsilinin səmərəli təşkili təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu mənada mühüm əhəmiyyətə malikdir. Bu günə qədər təkcə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 1728 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılmış, bu uşaqlardan 173-ü məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilmişdir. Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müəllim, metodist və tərbiyəçilərin iştirakı ilə 5 dəfə kurs təşkil edilmiş, bu qəbildən olan uşaqlar üçün qanvermə aksiyaları keçirilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmişdir. Hazırda muxtar respublika üzrə sağlamlıq imkanları məhdud olan onlarla uşaq distant təhsilə cəlb edilmiş, onların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar quraşdırılmışdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların bir qrupu da valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlardır. Humanist və xeyirxahlıq prinsiplərinin dövlət uşaq siyasətində mühüm yer tutduğu muxtar respublikada həm dövlət uşaq müəssisələrində, həm də ailələrdə himayə və qəyyumluqda yaşayan uşaqlara geyim dəstləri və dərs ləvazimatları verilir, onların tarixi-memarlıq abidələri və muzeylərlə tanışlığı, istirahət guşələrinə səyahətləri təşkil olunur. Uşaqların yetkin şəxsiyyət olaraq formalaşmasında, dövlət və cəmiyyət üçün yararlı insanlar kimi yetişməsində, şübhəsiz, onların ailə mühitində böyüməsinin, lazımi qayğı ilə əhatə olunmasının təsiri böyükdür. Ona görə də 2015-ci ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən valideyn himayəsindən məhrum olmuş 2 uşağın himayə və qəyyumluğa verilməsinin, 9 uşağın övladlığa götürülməsinin uçotu aparılmışdır.

Uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında mütaliə mədəniyyətinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Buna görə də muxtar respublikada uşaqların mütaliəsinə diqqət artırılır, müasir ədəbiyyat bazasına malik olan elektron kitabxanalar istifadəyə verilir, balacalar üçün kitablar nəşr olunur. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin xətti ilə "Uşaqlar və Günəş" almanaxı, "Təmsillər", "Şeir və hekayələr", "Poema və pyeslər" adlı uşaq kitablarının nəşr olunması bu sahəyə ayrılan diqqətin bariz nümunəsidir.

Muxtar respublikada uşaqların hüquqlarının qorunması, təhsili, sağlamlığı, sosial müdafiəsi, istirahəti, yaradıcılıq potensialının aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Çünki uşaqların milli dəyərlər, adət-ənənələr əsasında düzgün tərbiyə olunması, sağlam əxlaqi mühitdə yetişməsi vacib məsələdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Uşaqlarla iş gündəlik fəaliyyət və peşəkarlıq tələb edir. Çalışmaq lazımdır ki, gələcəyimiz olan uşaqlar, ilk növbədə, xalqımıza xas olan milli dəyərlər ruhunda tərbiyə olunsunlar, təhsilli, vətənpərvər vətəndaşlar kimi yetişsinlər".***

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib



1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilib.

Sağlamlıq imkanları məhdud uşaqların iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova uşaqları əlamətdar gün münasibətilə təbrik edərək muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunması istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışıblar.

Sonra uşaqlara hədiyyələr təqdim edilib. Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayeva sağlamlıq imkanları məhdud uşaqların valideynləri və müəssisə adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Çay süfrəsi arxasında keçirilən tədbirdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında səhnəciklər təqdim edilib, musiqi nömrələri səsləndirilib.

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı ailələrin uşaqlarının tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil edilib.*

Ekskursiya iştirakçıları əvvəlcə Heydər Əliyev Muzeyini və Dövlət Bayrağı Muzeyini ziyarət ediblər. Sonra uşaqlar Duzdağ Fizioterapiya Mərkəzində olublar.

Ekskursiya iştirakçıları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini də ziyarət ediblər.

Sonda ekskursiyada iştirak edənlər Naxçıvan Dövlət Film Fondunda "Biz qayıdacağıq" filminə baxıblar. Uşaqlara hədiyyələr təqdim olunub.

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə daha bir tədbir Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbində keçirilib.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev və Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxış edərək hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara və aztəminatlı ailələrin uşaqlarına göstərilən dövlət qayğısından bəhs ediblər.

Məktəbin direktoru Musa Ağayev xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqətə görə minnətdarlığını bildirib.

İnternat məktəbində təhsil alan valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaqlara geyim dəstləri verilib.

* * *



Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşməsinə, onların cəmiyyətə inteqrasiyasına, habelə asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət göstərilir və bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir.

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə mayın 29-da sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud uşaqların Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında gəzintisi təşkil olunub. Bu tədbir uşaqlar və onların valideynləri tərəfindən razılıqla qarşılanıb.

Sağlamlıq imkanları məhdud uşaqlar əyləncə guşələrindən və digər attraksionlardan istifadə ediblər. Gəzinti zamanı uşaqlara pulsuz iaşə xidməti də göstərilib.

Gün ərzində bu kateqoriyadan olan uşaqlar üçün bütün əyləncə guşələri pulsuz olub.

**Xəbərlər şöbəsi**

## Təhsil müəssisələrində məzun günü qeyd olunub



*Mayın 29-da "Gənclik" Mərkəzində Naxçıvan Müəllimlər İnstitutu tələbələrinin məzun olması münasibətilə tədbir keçirilib.*

Ali təhsil ocağının müəllim və məzunları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki büstü önünə gül dəstələri qoyublar. Sonra "Gənclik" Mərkəzində davam etdirilən tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyətinə həsr olunmuş slayd nümayiş etdirilib. Aparıcılar tədbiri açıq elan etdikdən sonra Naxçıvan Müəllimlər İnstitutunda təhsilin səviyyəsindən, fundamental tədris bazasından, onlara göstərilən diqqət və qayğıdan danışıblar.

Tədbirdə institutun xor kollektivinin, "Nəqşi-cahan" şən və hazırcavablar klubunun çıxışları olub, eləcə də məzunların ifasında şeirlər söylənilib, mahnılar oxunub, milli rəqslərimiz oynanılıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Fərmanına əsasən, Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılıb. 2003-cü il avqustun 26-da isə filial müstəqil instituta çevrilərək Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlayıb. Ötən dövr ərzində Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyəti genişləndirilib, ali təhsilli müəllim kadrlarının hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edilib. Bu dövrdə institut ixtisaslı müəllim kadrları ilə təmin edilib, ali təhsil ocağının binası yenidən qurulub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıb. Muxtar respublikamızda pedaqoji kadrlara ehtiyacın ödənilməsində Naxçıvan Müəllimlər İnstitutunun öz yeri olduğunu vurğulayan rektor bu il Pedaqoji fakültə üzrə 140, Təbiət və incəsənət fakültəsi üzrə isə 79 nəfər olmaqla, 219 nəfər tələbənin məzun olduğunu bildirib, onları təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə digər çıxış edənlər ali təhsil müəssisəsinə göstərilən dövlət qayğısından danışıblar.

*Həmin gün muxtar respublikanın digər ali məktəblərində, orta ixtisas və tam orta məktəblərində də məzun günü münasibətilə tədbirlər keçirilib.*

**Səbuhi HƏSƏNOV**

*P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında dahi bəstəkarımız, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 130 illiyinə həsr olunmuş konfrans keçirilib.*

## Naxçıvanlı bəstəkarın əsəri Moskvada səsləndirilib

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatından qəzetimizə verilən məlumata görə, konfransda Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar Kamal Əhmədovun həyat və yaradıcılıq yolu haqqında geniş məlumat verilib, onun Ü.Hacıbəyliyə ithaf etdiyi skripka və fortepiano üçün "Kapriççio" əsəri ifa olunub. Əsəri yüksək peşəkarlıqla beynəlxalq müsabiqələr laureatı, bəstəkar, skripkaçı Anastasiya Vedyakova ifa edib. Onu da qeyd edək ki, bu əsər dünya premyerasına vəsiqə qazanıb.

Konfransın ikinci mərhələsində bəstəkarın Ü.Hacıbəyliyə həsr etdiyi "Aşıqsayağı" (dörd skripka və fortepiano üçün) əsəri ifa olunub.

**Xəbərlər şöbəsi**

## Alman Akademik Mübadilə Xidməti ilə tələbə mübadiləsi istiqamətində əməkdaşlıq davam edir

Alman Akademik Mübadilə Xidməti (DAAD) Bakı Məlumat Mərkəzinin direktoru xanım Stefanie Dufaux və təşkilatda dil assistenti vəzifəsində çalışan xanım Kristina Nefger Naxçıvan Dövlət Universitetində olublar. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali məktəbin strukturu, buradakı kadr hazırlığı barədə qonaqlara ətraflı məlumat verib. Qeyd olunub ki, bu ali məktəb dünyanın 12 ölkəsinin 80-dən çox tanınmış universiteti ilə əməkdaşlıq edir, bir sıra beynəlxalq layihələrdə uğurla təmsil olunur. Tələbə mobilliyinin inkişafı nəticəsində universitetin bakalavr və doktorantları öz təhsillərini Türkiyə, Rusiya, Gürcüstan, Cənubi Koreya, Rumıniya, Çexiya kimi ölkələrin ali məktəblərində davam etdirirlər.

Rektor təşkilatın Bakı Məlumat Mərkəzinin əvvəlki rəhbəri xanım Nikola Ullişin universitetdə olub bakalavr və magistrantlar arasında Almaniyada yay dil kurslarında iştirak etmək üçün onlayn imtahanların təşkilində iştirak etdiyini, DAAD-ın Naxçıvan Dövlət Universitetində "Almaniyanın tarixi, coğrafiyası, ədəbiyyatı və mədəniyyəti" mövzusunda təlim kursunu reallaşdırdığını xatırladıb. O, Naxçıvan Dövlət Universitetində rus, ingilis, fransız, alman dillərinin, habelə Şərq dillərinin tədrisinin keyfiyyətindən, bunun üçün ali məktəbdə yetərli elmi kadr potensialı olmasından danışaraq müxtəlif dillərin tədrisinin məhz həmin xalqın mənsub olduğu ölkədə həyata keçirilməsinin, xarici mütəxəssislərin universitetə tədrisə cəlb olunmasının əhəmiyyətini vurğulayıb.

DAAD-ın Bakı Məlumat Mərkəzinin direktoru Stefanie Dufaux təşkilat haqqında ətraflı məlumat verərək bildirib ki, 90 yaşlı bu təşkilat, təxminən, 300 alman ali məktəbinin birgə qurumu və beynəlxalq əməkdaşlıq sahəsində ən böyük maliyyələşdirici qeyri-dövlət təşkilatıdır. O, həmin universitetləri xarici ölkələrdə təmsil edir. DAAD-ın əsas məqsədi Almaniya ilə tərəfdaş ölkələr arasında akademik münasibətlərin inkişafı, xüsusən elmin inkişafına yardım, alman təhsil sisteminin, ümumiyyətlə, akademik təcrübənin ölkə hüdudlarından kənarda yayılmasıdır.

Qonaqlar universiteti gəzərək İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzində quraşdırılan server avadanlıqları, elektron mühafizə və müşahidə sistemləri ilə maraqlanıblar. Media mərkəzində Universitet televiziyası və "Nuhçıxan" radiosunun verilişlərinin Naxçıvan şəhərində rəqəmsal formatda yayımlanması barədə məlumat verilib, universitetdə elektron sənəd dövriyyəsi prosesinin həyata keçirilməsi ilə tanışlıq olub.

**Mehriban SULTAN**

## Futbol üzrə muxtar respublika çempionatının qalibi "Araz-Naxçıvan" komandasıdır

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatı başa çatıb. 10 komandanın mübarizə apardığı çempionatın qalibi adını "Araz-Naxçıvan" futbol komandası qazanıb.***

Ötən ilin sentyabr ayında start verilən və 18 turdan ibarət olan muxtar respublika çempionatı bir sıra əlamətdar hadisələrlə yadda qaldı. Cari mövsümün qalibi "Araz-Naxçıvan" futbol komandası çempionatı məğlubiyyətsiz başa vurub. Komanda mövsüm ərzində yalnız bir dəfə xal itkisi ilə üzləşməli olub. Belə ki, Şərurda "Arpaçay" komandasının qonağı olan "qırmızı-ağlar" meydanı "sülh"lə tərk ediblər. Son 3 tura kimi "Dinamo" futbol klubu "Araz-Naxçıvan"ı izləsə də, rəqiblər arasında keçirilən matç hər şeyi həll edib. Daxili İşlər Nazirliyinin komandası başa çatan mövsümdə meydanı 3 dəfə məğlub tərk edib ki, bunun da məhz ikisi "qırmızı-ağlar"la oyunlara təsadüf edir. Onlar digər məğlubiyyətlə Şərurda "Arpaçay"la oyunda üzləşiblər. 3 məğlubiyyət və əldə edilən 43 xal nəticəsində "Dinamo" mövsümü ikinci pillədə başa vurub.

İlk dövrəni liderlər cərgəsində başa vuran Naxçıvan Dövlət Universitetinin (NDU) komandası isə üçüncülüklə kifayətlənməli olub. Tələbələr mövsüm ərzində 4 dəfə meydanı məğlub tərk ediblər ki, onların Şahbuzun "Batabat" komandası qarşısında büdrəməsi gözlənilməz olub. Yəqin ki, mövsümün gözlənilməz nəticələrinə imza atan komandanın "Arpaçay" olduğunu desək, yanılmarıq. Şərur təmsilçisi doğma arenada keçirdiyi oyunların yalnız birində ("NDU" ilə görüşdə) məğlub olub. Digər matçlarda isə bütün rəqiblərindən xal almağı bacarıb. "Arpaçay"dan fərqli olaraq, "Kəngərli" komandası mövsümün ən zəif kollektivi adını qazanıb. Belə ki, Kəngərli futbolçuları mövsüm ərzində keçirdikləri oyunlarda yalnız 7 xal toplayıblar.

2014-2015-ci il mövsümündə "Araz-Naxçıvan" futbol komandasının futbolçuları daha çox hakimlərin qəzəbinə tuş gəliblər. 18 tur ərzində referilər "qırmızı-ağlar"ın oyunçularına 30 sarı, 3 qırmızı vərəqə göstəriblər. Bu göstəriciyə görə "Dinamo" (24 sarı və 3 qırmızı vərəqə) və Culfanın "Əlincə" komandası (19 sarı, 3 qırmızı vərəqə) da "fərqlənənlər" sırasındadır. Mövsümün feyr-pley qaydalarına ən çox riayət edən isə "Kəngərli" komandasıdır – 8 sarı vərəqə.

Geridə qoyduğumuz mövsümün bombardiri adını "Araz-Naxçıvan"ın hücumçusu Tağı Seyidov qazanıb. O, 18 tur ərzində rəqib qapılardan 18 top keçirməyə müvəffəq olub. Digər iki pillədə də "Araz-Naxçıvan"ın futbolçuları qərarlaşıblar. Turqay İbrahimov 17 qol vurub, İbrahim Əliyev isə 14 dəfə fərqlənib.

**Yekun turnir cədvəli**

| S/№ | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 18 | 17 | 1 | 0 | 68-11 | 52 |
| 2. | Dinamo | 18 | 14 | 1 | 3 | 59-21 | 43 |
| 3. | NDU | 18 | 13 | 1 | 4 | 49-19 | 40 |
| 4. | Arpaçay | 18 | 9 | 4 | 5 | 43-31 | 31 |
| 5. | Batabat | 18 | 7 | 4 | 7 | 37-42 | 25 |
| 6. | Əlincə | 18 | 5 | 6 | 7 | 29-41 | 21 |
| 7. | Babək | 18 | 6 | 2 | 10 | 40-39 | 20 |
| 8. | Dübəndi | 18 | 4 | 1 | 13 | 26-59 | 13 |
| 9. | Sədərək | 18 | 2 | 1 | 15 | 25-67 | 7 |
| 10. | Kəngərli | 18 | 2 | 1 | 15 | 16-62 | 7 |

## Basketbol çempionatının 5-ci turunun oyunları keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatında 5-ci turun oyunları keçirilib.

"Naxçıvan" komandası səfərdə culfalı həmkarları ilə qarşılaşıb və meydanı 76:42 hesablı qələbə ilə tərk edib. Onlar kimi "Ordubad" komandası da qələbə sevinci yaşayıb. Bu dəfə ordubadlı basketbolçular "Babək" komandası qarşısında çətin anlar yaşasalar da, sonda 2 xalı aktivlərinə yaza biliblər – 45:40. "Lokomotiv"-"Naxçıvan" Universiteti komandalarının oyununda da azarkeşlər 5 xallıq fərqin şahidi olublar. Belə ki, daha üstün oyun sərgiləyən meydan sahibləri qələbə qazanmaqla, xallarını 7-yə çatdırıblar. Ümumiyyətlə, bu turu meydan sahibləri üçün uğurlu hesab etmək olar. "Lokomotiv" və "Ordubad" komandaları kimi, "Şərur" komandası da doğma meydan amilindən yararlanmağa müvəffəq olub. Onlar mövsüm ərzində ikinci qələbələrini "Sədərək" komandası üzərində əldə ediblər – 44:25.

| S/№ | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 5 | 5 | 0 | 396-183 | 10 |
| 2. | Ordubad | 5 | 5 | 0 | 266-161 | 10 |
| 3. | Culfa | 5 | 3 | 2 | 272-237 | 8 |
| 4. | Babək | 5 | 2 | 3 | 215-214 | 7 |
| 5. | Lokomotiv | 5 | 2 | 3 | 188-233 | 7 |
| 6. | Şərur | 5 | 2 | 3 | 150-214 | 7 |
| 7. | "Naxçıvan" Universiteti | 5 | 1 | 4 | 202-318 | 6 |
| 8. | Sədərək | 5 | 0 | 5 | 176-305 | 5 |

**Ceyhun MƏMMƏDOV**

## Ordubad və Babək rayonlarında tibb işçilərinin dövri tibbi müayinələri başa çatıb

Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçilərinin qanla keçə bilən yoluxucu xəstəliklərlə, o cümlədən B və C hepatit virusuna yoluxma ehtimalını aradan qaldırmaq üçün onlardan ildə iki dəfə qan nümunələri götürülür və tibb işçiləri müayinəyə cəlb olunurlar.

Bu tədbir əvvəllər Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə Mərkəzində keçirildiyindən rayonlarda obliqat qrupuna daxil olan tibb işçilərinin vaxt itkisinə səbəb olur, göndərilən qan nümunələrində yanlışlıqlara yol verilir, nəticələr tibbi müayinə kartlarında lazımi əksini tapmırdı. Bu problemi aradan qaldırmaq üçün QİÇS-lə Mübarizə Mərkəzi Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, Dəri-Zöhrəvi və Ağciyər Xəstəlikləri dispanserlərinin iştirakı ilə belə müayinələri bilavasitə obliqat qrupların fəaliyyət göstərdikləri rayonlarda keçirməyə başlamışdır. Culfa və Şərur Rayon Mərkəzi xəstəxanalarında keçirilən tədbirlərdə həmin bölgələrdə fəaliyyət göstərən səhiyyə müəssisələrinin tibb işçilərindən qan nümunələri götürülmüş, QİÇS-lə Mübarizə Mərkəzinin laboratoriyasında HİV, hepatit B, C və qanla keçən digər xəstəliklərə görə analiz olunması üçün seroloji diaqnostika aparılmış, nəticələr tibbi müayinə kartlarında öz əksini tapmış, yoluxucu xəstəliklərə yoluxma əlamətləri olan işçilər haqqında ərazi gigiyena və epidemiologiya mərkəzlərinə və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə məlumat verilmişdir.

Növbəti müayinələr Ordubad və Babək Rayon Mərkəzi xəstəxanalarında keçirilmişdir. Ordubad Rayon Mərkəzi Xəstəxanasının, rayonun həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin 220 nəfər tibb işçisi ilə yanaşı, Gigiyena və Epidemiologiya Mərkəzinin 18, gözəllik salonlarının 12 nəfər işçisi də aksiyaya cəlb edilərək onlardan qan nümunələri götürülmüşdür.

Mayın 26-27-də isə Babək rayonunun səhiyyə işçiləri aksiyada iştirak etmişlər. Mərkəzi xəstəxana ilə yanaşı, Cəhri və Nehrəm kənd sahə xəstəxanalarının, rayonun həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin 240, Gigiyena və Epidemiologiya Mərkəzinin 14, gözəllik salonlarının 25 nəfər işçisindən qan analizləri alınmışdır.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimləri isə ağciyər vərəminin profilaktikası və ilkin vərəmin vaxtında aşkar edilməsi məqsədilə Ordubad rayonunda 186, Babək rayonunda isə 233 nəfər tibb işçisini rentgen-flüoroqrafik müayinədən keçirmiş, xəstəliyə şübhəlilər əlavə müayinələrə cəlb olunmuşlar.

Səhiyyə Nazirliyində hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə 5 nəfərdən ibarət komissiya bu infeksiyaların profilaktikası və diaqnostikası, həmçinin belə xəstələrin müalicəsi üzrə görülən işlərin əlaqələndirilməsi, mövcud problemlərin həlli məqsədilə lazımi tədbirlərin görülməsi kimi vəzifələrin yerinə yetirilməsi ilə məşğul olacaq, aşkar olunmuş belə xəstələrin müalicəsi üçün müvafiq göstərişlər verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 427